... Şairlər göy üzünün adamlarıdı. Və onlar sağ olanda da, dünyasını dəyişəndə də göy üzünə qalxırlar. Və göy üzünə qalxmaq Allaha bir az da yaxın olmaq, Allaha bir az da doğma olmaq deməkdir. Əksər şairlər elə sağlığında Allaha qovuşurlar. Çünki onlar yarandığı gündən Allahın dərgahına döndüyü ana kimi Yaradanın göndərdiyi o nuru, o enerjini, o poeziyanı insanlara ötürürlər...

...Və mənim uzun illər bir yerdə işlədiyimiz, çörək kəsdiyimiz, istedadına və əzabkeşliyinə böyük hörmətim olan şair-publisist Qələndər Xaçınçaylı da belə insanlardan idi. Və düşünürəm ki, Qələndər dünyasını dəyişsə də, o yenə bizim aramızda, yenə bizim içimizdə və yenə bizim qəlbimizdədi. Bu yazını bilgisayara diqtə eləyəndə elə bilirəm ki, qapı açılacaq və Qələndər içəri girib bizimlə görüşəcək və "sizi verənə şükür!" - deyib bir-birimizə sarmaşacağıq...

Onun çox gözəl, unikal və yaddaqalan misrası var:

*... Sapanda qoyulmuş bir daş kimiyik,*
*Bizi hara gəldi atıblar, qardaş!*

Sanki bu şeir Qələndərin öz taleyidi... sanki bu şeir Qələndərin keçdiyi əzablı yolların bir görünüşüdü... sanki bu şeir öz elindən, öz obasından, yurdundan, yuvasından, Qələndər kimi didərgin olmuş yüz minlərlə insanın acı ömrüdü...

...Və bu acı tale hardasa ötən əsrin 90-cı illərindən bu günə kimi məşəqqətlər içində yaşayan, fırtınalardan, tufanlardan qurtarmağa çalışan, həm də Azərbaycanın səsidi. Qələndər təkcə öz ağrısını, acısını, göz yaşını, faciəsini qələmə almayıb: O, yurdu-yuvası dağılan bir milyondan çox insanın dərdini dünyaya çatdırır, onun göz yaşını silmək istəyir. O zəif, o çılğın, o yorğun həyatıyla bu dərdə, bu qəmə, bu kədərə sinə gərmək istədi.

Və çox vaxt da gücü çatdığı addımı atdı. Özündən çox, başqasının dərdini, qəmini çəkdi. Bilənlər bilir, bilməyənlər də özləri bilər...

... Bir adamın işi düşən kimi heç bir şey düşünmədən, fikirləşmədən ona kömək əlini uzadar, əlindən gələni əsirgəməz və hətta gücü çatmadığı işi aşırmağa çalışardı. Gücü çatmayanda da "əmioğlu" - deyib Aqil Abbasın yanına gələr və kiminsə işi üçün xahiş eləyərdi. Qələndər özü üçün yaşayan adam deyildi. İstəsəydi çox iş görərdi. Çünki qəzetimizin hörmətli vaxtında o, "Ədalət"də sözün həqiqi mənasında külüng çalıb, tər töküb, zəhmət çəkib, qəzetin yaşaması və oxucu dairəsinin artması üçün o, zəif, cılız canıyla çox işlər görüb.

Şəhid qardaşının ruhu şad olsun deyə, onun ailəsinin bütün çətinliklərini çiyninə götürüb. Bu çətin zəmanədə o ailənin, o uşaqların sıxıntı yaşamasına, korluq çəkməsinə imkan verməyib. Öz ailəsi korluq çəkib, ancaq qardaşının balasının ac-susuz qalmasına dözməyib. Və istəsəydi, o vaxt bir xahişlə başqaları kimi torpaq sahəsi də ala bilərdi, ev də tikə bilərdi. Amma öz xahişini heç vaxt kimdənsə eləməzdi. Yeni Günəşlidəki o kasıb, sadə mənzilində yaşayırdı. Və heç kimə də ağız açmırdı ki, evin təmirinə kömək eləsin!..

Mən çox əzabkeş, zəhmətkeş insanlar tanıyıram. Amma Qələndər Xaçınçaylı kimi əzabkeş və zəhmətkeş adam görməmişəm. Bir tikə çörək üçün ora-bura o qədər qaçırdı ki, axırda ayaqları da, barmaqları da yayın istisində mazol olurdu. Bir dəfə ayaqqabısını çıxaranda ayağındakı mazolu gördüm. Ürəyim para-para oldu. Dedim ki, Qələndər, get həkimə müalicə elətdir. Dedi ki, ay rəhmətliyin oğlu, mən ora-bura qaçmasam, özümü oda-közə vurmasam, şəhid qardaşımın uşaqları acından ölər. Hələ nə yaxşı ki, Aqil Abbas var. Heç kim başa düşməsə də, məni o başa düşür. Axı mən də Kolanıyam. Kolanılılar dar gündə bir-birini çətin vəziyyətdə qoymurlar. Allah balasını saxlasın!..

Tez-tez redaksiyamıza gələrdi. Ya yazı gətirərdi, ya da şeirlərini çap elətdirmək istəyərdi. İndi düşünürəm ki, nə yaxşı o, bizim redaksiyaya təşrif buyuranda ona sevgiylə, məhəbbətlə, diqqətlə yanaşmışam. Və həmişə də Əbülfət Mədətoğluya demişəm ki, Qələndərdən muğayat ol! O, qəzetin yolunda çox əziyyət çəkib. Yayın istisində, qışın soyuğunda yazı qələmə almaq üçün piyada özünü oda-közə vurub. Axır ki, istədiyi yazını da qələmə ala bilib. Onda indiki kimi deyildi. Yazı yazmaq da çətin idi, müsahibə almaq da. Bir müsahibə üçün 3-4 dəfə kiminsə yanına getməli idi. O da kefi olsa müsahibə verirdi, kefi olmasa müsahibədən vaz keçirdi. Belə bir şəraitdə işləmək elə də asan deyildi. Yazı da həmin gün hazır olmasa, Aqil Abbasa cavab verməli idin. Bütün bunların hamısını Qələndər nəzərə alırdı. İstər xəbər olsun, istər müsahibə olsun, istərsə də reportaj olsun, operativ surətdə yazıb hazırlayırdı.

Hətta bir dəfə necə möhkəm yağışa düşmüşdüsə, cumculuq su olmuşdu. Onun iki müxbiri də o yağışda möhkəm islanmışdı. Onlar deyirdilər ki, Qələndərə nə qədər dedik ki, gəl gedək, yağış yağır. Dedi ki, bu adam mütləq gələcək. Və o adam gəldi, yağışın içində olsalar da, müsahibəsini ala bildi.

Qələndər deyirdi ki, mənim göydə Allahdan, yerdə Aqil Abbasdan başqa heç kimim yoxdu. Elə ən ağır vəziyyətdə də göydə Allahdan kömək istəyib, yerdə də Aqil Abbasdan. Bu dəfə ona nə göydə Allah, nə də yerdə Aqil Abbas və həkimlər kömək eləyə bildi. Bu dəfə bu əzabkeş, bu zəhmətkeş, bu halal adam ümidsiz qaldı. Və Allahın dərgahına döndü.

Qələndər Xaçınçaylının dostluq etdiyi və heç vaxt da zarafatından qalmadığı Surxay Əlibəyli vardı. Və Surxayla yaddaqalan və çətin günlər yaşamışdılar. Ağdam deyəndə hər ikisinin dodağı 4 yerdən çatlayırdı. 4 yerdən dodağı çatlayan Surxay da, Qələnədər də indi Allahın dərgahındadılar. Sağ vaxtı Ağdama gedə bilmədilər. Heç olmasa ruhları birləşib həmin yerləri ziyarət eləyər. Qələndər deyərdi ki, mən Quzanlıya gedəndə bir qədər sakitləşirəm. Amma yenə havalanıram. Havalanıram ki, əlimi uzatsam çatacaq, Ağadama gedə bilmirəm. Bu nə həyatdı, bu nə ömürdü yaşayırıq?!

... Onu biz hamımız çox istəyirdik. Onu tək mən çox istəmirdim, bizim köhnə işçilər, köhnə əməkdaşlar - Nazim Ağamirov, Babək Yusifoğlu, Asif Talıboğlu, Lətif Süleymanlı, Məhəmmədəli Mustafa, Lətif Novruzov çox istəyirdilər. Çünki Qələndər olduğu kimi görünən adam idi. Və onun bir sifəti vardı: üzdə necə idisə, arxada da elə idi. Və bu adam heç kimin qəlbini, ürəyini qıran deyildi. Elə kiminləsə görüşürdü, özünəməxsus şirin bir ifadə işlədirdi: "Səni verənə şükür!"

... Xəstəxanaya düşəndə xəbər tutdum. Daha doğrusu, Asif Mərzilinin yuxarıdakı otağına qalxıb öyrəndik ki, vəziyyəti yaxşı deyil. O dəqiqə telefon açdım. Və dəstəyi qaldırdı:

- Faiq, narahat olma, yaxşıyam! Amma ciyərlərimin hər iki tərəfində soyuqlama var. Mənim bir yazım vardı, çıxdı, çıxmadı?

- Çıxdı, - dedim.

Qarabağın ağsaqqalı və Rəşad Məcidin atası Müseyib kişi barəsində çox gözəl bir zarisovka yazmışdı. Və o zarisovkada Müseyib kişinin ağsaqqal obrazını o qədər səmimi və inandırıcı vermişdi ki, düşündüm ki, nə yaxşı belə bir yazı qələmə alıb.

Sonra yenidən dilləndi:

- Səni təbrik eləyirəm. Axı, Əməkdar jurnalist adı almısan. Xəstəxanadan çıxandan sonra yanına gələcəm.

... Və beləcə, onunla son telefon danışığımız bitdi... Və beləcə, bir gün yazı diqtə edərkən Qələndərin ölüm xəbərini eşitdim... Və beləcə, donub yerimdə qaldım... Çünki son bir ayda üç əziz dostumu - polis polkovniki İlham Rəcəbovu, Əməkdar jurnalist Ziyəddin Sultanovu və istedadlı şair-publisist Qələndər Xaçınçaylını itirdim...

... Elə qorxuram ki, belə qəfil və acı xəbərlərdən. Ölümdən yox ey, dostlarımı itirməkdən! Qorxuram ki, yenə bu ağır xəstəliklər dövründə bəd xəbərlər eşidək. Amma Allah böyükdü. Və bizi bu bəladan xilas eləyər. Qapımızı ölüm mələyi yox, sevgi mələyi döysün.

Və Qələndər Xaçınçaylının ruhu balalarının üstündə olsun. Ruhu Allaha qovuşan Qələndər Xaçınçaylı heç vaxt, heç zaman ölməyib. Çünki şairlər, yazıçılar heç vaxt ölmürlər. Və onların ruhu həmişə göyün yeddinci qatındadı və göyün yeddinci qatında da bu ruh bizimlə olacaq. O əzabkeş, o zəhmətkeş və heç kimə ağrısını-acısını bildirməyən Qələndər Xaçlınçaylı bizim yadımızdan çıxmayacaq. Ən azından ona görə ki, onun yaddaqalan və qeyri-adi fikri həmişə bizim çöhrəmizdə bir təbəssüm yaradacaq:

- Sizi verənə şükür!